

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 249 (21.659)

29 dekabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda 1 saylı "ASAN kommunal" Mərkəzinin açılışında iştirak edib və Biləcəri stansiyasında səyyar "ASAN qatar"la tanış olub.

Dövlətimizin başçısı mərkəzi işə salıb.

Sonra dövlətimizin başçısı mərkəzin kollektivi ilə görüşərək çıxış edib.

Daha sonra Prezident İlham Əliyev səyyar "ASAN qatar"la tanış olmaq üçün "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasına gəlib.

Prezident İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Bakı vaqon deposunda "ASAN qatar" sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb. Səyyar "ASAN qatar" gözləmə zalı, laboratoriya, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla 4 vaqondan ibarətdir.

Dövlətimizin başçısı səyyar "ASAN qatar"larda yaradılan şəraitlə tanış olub.



## Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd olunub

***Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev geniş məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, dünya azərbaycanlılarının həmrəylik və birlik ideyasını dövlət siyasəti səviyyəsinə qaldıran ulu öndər Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, məskunlaşdıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etmələri, doğma Vətənlə əlaqələrinin genişləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır, soydaşlarımızın problemlərinin həllini və hüquqlarının müdafiəsini təmin etmək üçün özünün siyasi təcrübəsindən və dövlətin imkanlarından yetərincə istifadə edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən dekabrın 31-nin "Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü" kimi qeyd olunması barədə tarixi qərara imza atan ümummilli lider Heydər Əliyevin bu missiyası, bütünlüklə, milli diasporun formalaşmasına zəmin yaradıb. Müstəqillik illərində dünya azərbaycanlılarının xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, Azərbaycançılıq duyğularına əsaslanan həmrəylik ideyası ulu öndər Heydər Əliyevin sayəsində ictimai təşəbbüslərdən əməli işə, çoxşaxəli fəaliyyət planına və dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib.

Bildirilib ki, 2001-ci ildə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. 2002-ci ildə isə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb. "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul olunması bu sahədə prioritet istiqamətləri və hüquqi prinsipləri müəyyən edib. Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə bilavasitə diaspor problemi ilə məşğul olan dövlət orqanlarının təsis edilməsi və müvafiq qanunun qəbul olunması dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da sürətləndirib, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması işinə təkan verib.

Vurğulanıb ki, ümummilli liderin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi, güclü Azərbaycan diasporunun və lobbisinin yaradılması məsələlərini daim diqqət mərkəzində saxlayır, bu prosesin daha da təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin görülməsini əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Dövlət başçısının diaspor quruculuğu sahəsində apardığı ardıcıl, davamlı və məqsədyönlü işlərin nəticəsi olaraq, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən azərbaycanlı icmaların sayı ildən-ilə artır.

2006-cı ildə Dünya Azərbaycanlılarının II, 2011-ci ildə III, 2016-cı ildə IV qurultaylarının keçirilməsi diaspor qruplarının birləşməsi və lobbiçilik fəaliyyətinin daha da gücləndirilməsi işinə əsaslı stimul olub.

Bildirilib ki, ötən dövrün ən çox yaddaqalan hadisələrindən biri də Azərbaycan Prezidentinin 2008-ci il 19 noyabr tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diaspora İş üzrə Dövlət Komitəsinin yaradılmasıdır. Bu, diaspor quruculuğu sahəsində müstəqil dövlətimizin qarşısında yeni vəzifələr qoyur.

Sonra məruzə ətrafında Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Gənclər Birliyinin sədri Elvin Məmmədovun, təşkilatın təlimatçısı Uğur İsgəndərovun, rayon İcra Hakimiyyətinin əməkdaşı Emin Mehbalıyevin çıxışları olub.

✍ **Muxtar MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya öz fəaliyyətində peşəkarlığın və keyfiyyətin artırılması, şəffaflıq və obyektivliyin təmin edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri 2016-cı il ərzində də uğurla həyata keçirib. İl ərzində dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət olunub, dövlət orqanlarının qanunvericiliyə uyğun olmayan 4 qərarı ləğv etdirilib.***

## 2016-cı il ərzində 249 nəfər dövlət qulluğuna qəbul edilib

Naxçıvan Muxtar Respublikasında mərkəzləşdirilmiş qaydada vətəndaşların dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi təşkil edilib. Bu dövrdə də dövlət qulluğuna yüksək şəxsi keyfiyyətlərə və ixtisas biliklərinə malik, vətənpərvər, geniş dünyagörüşlü və yaradıcı kadrların seçilməsi komissiyanın əsas fəaliyyət istiqamətlərindən biri olub. Belə ki, il ərzində dövlət orqanlarında 593 vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün komissiya tərəfindən elan olunmuş 4 müsabiqənin test və müsahibə mərhələləri keçirilib, müsabiqədə iştirak edən 987 namizəddən 249-u vakant vəzifələrə təyin olunub.

` Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanlarının keçirilməsinə köməklik göstərilib. Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Ədliyyə və Vergilər nazirliklərində vakant vəzifələrin tutulması, habelə Vəkillər Kollegiyası üzvlüyünə qəbul üçün müsabiqələrdə iştirak edən 174 namizəddən 63-ü müvafiq keçid balını toplayıb.

Hesabat dövründə ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılıb, ehtiyat kadrlar siyahısına alınan 23 namizəddən 16-sı vakant vəzifələrə təyin edilib.

Komissiya tərəfindən dövlət qulluqçularının idarə edilməsinə dair mərkəzləşdirilmiş məlumat bazasının inkişaf etdirilməsi və ondan səmərəli istifadə olunması təmin edilib. Bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən dövlət qulluqçularının dövlət qulluqçularının reyestrinə daxil edilməsi başa çatdırılıb, 2567 dövlət qulluqçusu barədə məlumatlar reyestrə işlənilib. Hazırda dövlət orqanlarında 56 nəfər siyasi, 1955 nəfər inzibati və 556 nəfər yardımçı vəzifə tutur. Dövlət qulluqçularının 26,1 faizini gənclər, 22,6 faizini isə qadınlar təşkil edir.

İl ərzində komissiyanın test bazasının yeni suallarla zənginləşdirilməsi və testlərin ekspertizasının davam etdirilməsi də diqqətdə saxlanılıb. Test sualları Azərbaycan Respublikasının Konstitusiyasına və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklərə uyğunlaşdırılıb, "Qanunvericilik", "Dünyagörüşü" və "İnformasiya texnologiyaları" test imtahanı blokları üzrə 750 yeni test tapşırığı tərtib edilərək ekspertizadan keçirilib və test bankına daxil edilib. Test tapşırıqlarının ekspertizası Azərbaycan Respublikası Tələbə



Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin ekspertləri və Naxçıvan Dövlət Universitetinin müəllimləri tərəfindən həyata keçirilib.

Hesabat dövründə elektron xidmətlərin göstərilməsi diqqət mərkəzində saxlanılıb. "Dövlət qulluğuna qəbul üzrə qeydiyyat üçün müraciətin və sənədlərin qəbulu" elektron xidməti üzrə 2016-cı il ərzində elan edilmiş 9 müsabiqədə iştirak edən 1291 nəfərə komissiya tərəfindən elektron xidmətlər göstərilib. Sənəd qəbulunun elektron formada təşkil edilməsi nəticəsində vaxta, kağız daşıyıcılarına və sənəd qəbulunu həyata keçirən işçi qüvvəsinə qənaət olunub.

Dövlət qulluğu sahəsində qəbul edilmiş normativ-hüquqi aktların dövlət qulluqçuları tərəfindən öyrənilməsi ilə bağlı maarifləndirici tədbirlərə ciddi önəm verilib. Keçirilən təlimlər "Dövlət qulluqçularının reyestrinin aparılması qaydaları", "Dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları", "Dövlət qulluqçularının etik davranış qaydaları", "Müsahibənin keçirilməsi qaydaları", "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları" və "Dövlət orqanlarında kargüzarlığın aparılması qaydaları" mövzularını əhatə edib. Keçirilən 11 seminarda, ümumilikdə, inzibati vəzifə tutan 791 dövlət qulluqçusunun iştirakı təmin olunub.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara həmiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamından irəli gələn vəzifələrin icra edilməsi məqsədilə Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri üçün tədris ili ərzində ayda iki dəfə komissiyanın təcrübəli əməkdaşları tərəfindən açıq dərslər keçirilib, komissiyanın inzibati binasında tələbələrin təcrübə keçmələri təşkil edilib, tələbələrə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəşrləri olan "Dövlət qulluğu: nəzəriyyə və praktika" və "Dövlət qulluğunun hüquqi əsasları" dərslikləri təqdim olunub.

Cari ildə dövlət qulluğu sahəsində fəaliyyətin təkmilləşdirilməsi üçün zəruri normativ-hüquqi aktlar qəbul edilib. Muxtar respublikada dövlət qulluğuna qəbulun həyata keçirilməsini daha da təkmilləşdirmək məqsədilə "Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında dövlət qulluğuna qəbul və inzibati vəzifələrin tutulması üçün müsahibənin keçirilməsi Qaydaları" yenidən işlənilib, "Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında dövlət qulluğuna qəbul üzrə test imtahanları üçün test nümunələrinin hazırlanması və ekspertizası Qaydaları", "Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında dövlət qulluğuna qəbul üzrə test imtahanının təşkili, keçirilməsi, qiymətləndirilmənin aparılması Qaydaları", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları" və "Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin tutulması üçün ehtiyat kadrların formalaşdırılması Qaydaları" işlənib hazırlanıb və komissiyanın müvafiq qərarları ilə təsdiq edilib. Həmin qərarlar Ədliyyə Nazirliyinə təqdim edilib və Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrində qeydə alınıb.

Bundan başqa, "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" təsdiq edilib və 2016-cı ildə muxtar respublikada ilk dəfə dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə başlanılıb.

Komissiya qarşıya qoyulmuş vəzifələrin günün tələbləri səviyyəsində yerinə yetirilməsi üçün səyini bundan sonra daha da artıracaq, fəaliyyətini bu istiqamətdə quracaqdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Naxçıvanda müasir dəmir yolu infrastrukturu yaradılıb

## *Bunun nəticəsidir ki, bu gün Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayır*

***29 dekabr 2016-cı il. Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan tarixi bir hadisəyə şahidlik, eyni zamanda ev sahibliyi edir. Son günlərin ən çox danışılan mövzularından biri olan Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı bu tarixdən etibarən fəaliyyətə başlayır. 1992-ci ildən muxtar respublikaya hərəkəti tamamilə dayandırılan dəmir yolu nəqliyyatının İran İslam Respublikasının Təbriz-Tehran-Məşhəd şəhərləri istiqamətində fəaliyyətə başlaması təkcə Naxçıvan üçün deyil, ümumi regionun inkişafı və tranzit imkanları baxımından atılmış mühüm addımdır. Bu layihənin həyata keçirilməsi ötən əsrin əvvəllərindən blokada vəziyyətinə salınmış Naxçıvanın dayanıqlı inkişafının sayəsində mümkün olub.***



Əvvəlcə onu qeyd edək ki, dəmir yolu nəqliyyatı istənilən dövrdə sərnişin və yüklərin daşınmasında ən perspektivli vasitələrdən sayılıb. Çünki yüklərin həcminə, sərnişinlərin sayına, maliyyə xərclərinin münasibliyinə, eyni zamanda daha təhlükəsiz daşınmalara görə dəmir yolları müstəsna əhəmiyyətə malikdir. Naxçıvan ərazisində də ötən əsrin əvvəllərindən dəmir yollarının mövcudluğu muxtar respublikanın tranzit imkanlarını ortaya qoyub. Lakin bu sahədə mühüm irəliləyişlərə ümummilli lider Heydər Əliyevin xidmətləri sayəsində nail olunub. Muxtar respublikada yük və sərnişindaşımalarına olan tələbatı təmin etmək, xidmətin səviyyəsini yüksəltmək məqsədilə ulu öndərimizin şəxsi təşəbbüsü ilə 1976-cı ildə dəmir yollarının Naxçıvan Hissəsinin mərkəzi aparatı İmişli stansiyasından Naxçıvan şəhərinə köçürülüb və hərtərəfli fəaliyyəti təmin edilib. Bu mühüm qərar muxtar respublikada dəmiryol infrastrukturunun formalaşdırılmasında, hərəkətin intensivliyinin təmin olunmasında, eyni zamanda Naxçıvanda bu sahənin mühüm bazasının əsasının qoyulmasında əhəmiyyətli rol oynayıb. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən hadisələr, erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi dəmir yolu şəbəkəsinə də ciddi ziyan vurub, 240 kilometrdən artıq dəmir yolu xətti dağıntılara məruz qalıb. Nəticədə, Mehri-Kərçivan sahəsində qatarların hərəkəti dayandırılıb, Naxçıvan Muxtar Respublikasının dəmir yolu ölkədən təcrid edilib, muxtar respublika blokada vəziyyətinə düşüb. İctimai-siyasi vəziyyətin kəskinləşdiyi həmin dövrdə muxtar respublikada bütün müəssisələrin fəaliyyəti iflic vəziyyətinə düşüb, iqtisadi katastrof özünün pik nöqtəsinə çatıb. Lakin ümummilli liderimizin gərgin əməyi sayəsində Naxçıvan əhalisi sabaha olan ümidini itirməyib, "blokada xərçəsi" sayılan dəmir yolu nəqliyyatı muxtar respublika daxilində öz fəaliyyətini davam etdirib. Aparılan təhlillər onu göstərir ki, bu nəqliyyat növünə daxildə o qədər ehtiyac duyulmasa da, Naxçıvanın istənilən dövr üçün qan damarı rolunu oynayan dəmir yolu öz işləkliyini məhdud ərazi və imkanlar çərçivəsində davam etdirib. Təbii ki, sonrakı dövrlərdə muxtar respublikaya gətirilən və buradan göndərilən yükdaşımalarında, eləcə də sərnişindaşımada alternativ vasitələrdən istifadə olunsa da, dəmir yollarının inkişafı diqqətdən kənarda qalmayıb. Və nəinki kənarda qalmayıb, hətta bu sahədə mühüm infrastruktur tədbirləri həyata keçirilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada bütün sahələrə göstərdiyi böyük qayğı dəmir yollarını da əhatə edib. Ötən illər ərzində "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti üçün müasir iş şəraiti yaradılıb, vağzal binaları, stansiyaların idarəetmə mərkəzləri, digər inzibati və yardımçı binalar əsaslı təmir olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı"nın uğurla icra olunması muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafında yeni mərhələnin əsasını qoyub. Son illər Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və radio-rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilib. Muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanları yaradılıb, 2011-ci ildən Vəlidağ stansiyasından Qarabörk stansiyasına qum-çınqıl, Şahtaxtı stansiyasından isə Naxçıvan və Qarabörk stansiyalarına travertin-mərmər bloklarının daşınmasına başlanılıb. 2014-cü ildə cəmiyyətin İnfrastruktur İdarəsinin inzibati binası əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilib. Hazırda Ordubadda sərnişin vağzalı və Yol Sahəsinin inzibati binalarının tikintisi, İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarının əsaslı təmirinin davam etdirilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter almasının əyani ifadəsidir.



Yeni avadanlıqların, maşın və mexanizmlərin alınıb gətirilməsi, yolların əsaslı təmiri və yenidən qurulması, vaqonların istismara yararlı vəziyyətdə olması da diqqət mərkəzində saxlanılıb, yük və sərnişindaşımalarının etibarlılığı təmin edilib. İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi muxtar respublikada nəqliyyatın bu növündən istifadə edənlərin sayının artmasına səbəb olub. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətindən verilən məlumata görə, bu ilin 11 ayında muxtar respublikada dəmir yolu vasitəsilə 138 min 414 sərnişin və 48 min 804 ton yük daşınıb. Ötən əsrin 90-cı illərindən blokadaya salınan muxtar respublikada bu sahəyə diqqət göstərilməsəydi, sadaladığımız tədbirlər həyata keçirilməsəydi, bu gün Naxçıvan qonşu ölkələrlə birgə həyata keçirilən beynəlxalq layihələrə qoşula bilməyəcəkdi. Çünki hansı sahə olursa olsun, infrastrukturu mövcud olmayan və ya müasir tələblərə cavab verməyən baza ilə qarşılıqlı əməkdaşlığa maraq oyatmaq və burada rol oynamaq mümkün deyil. Bir sahədə yeni infrastruktur yaratmaq isə vaxt və böyük maliyyə vəsaiti tələb edən prosesdir. Bu baxımdan muxtar respublikanın dəmiryol təsərrüfatında ötən illər ərzində görülmüş böyükmiqyaslı işlər indi öz bəhrəsini verir.

Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlamasının perspektiv tərəfləri haqqında bəhs etmək də yerinə düşər. Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanmış Çərçivə Sazişində öz əksini tapıb. Bu ilin ötən dövrü ərzində "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İran Dəmir Yolları arasında dəmir yollarının rəhbər heyəti və ekspertlərinin iştirakı ilə Naxçıvan, Təbriz, Tehran və Bakı şəhərlərində bir neçə görüş keçirilib, imzalanmış ikitərəfli protokollara əsasən, Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması, onunla əlaqədar tariflər razılaşdırılıb. Göstərilən istiqamət üzrə ümumi uzunluğu 1858 kilometr olan dəmir yolunda hərəkət üçün Bakı şəhərindən gətirilmiş 3 ədəd müasirtipli sərnişin vaqonundan istifadə olunacaq. Qeyd edək ki, bu beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması Naxçıvandan İran İslam Respublikasının adıçəkilən şəhərlərinə və əks-istiqamətdə sərnişinlərin rahat gedişgəlişinə, eyni zamanda hər iki tərəfin turizm sektoruna öz töhfəsini verəcək. Digər tərəfdən, növbəti mərhələdə bu dəmir yolu xətti ilə yükdaşımaların həyata keçirilməsi nəzərdə tutulur ki, bu da dəmir yolunun iqtisadi əhəmiyyətini xeyli artıracaqdır. Belə ki, artıq Saraks üzərindən Orta Asiyaya və Bəndər-Abbas limanına marşrutlar işlənib, yükdaşıma tariflərinə güzəştlər olub. Bunun nəticəsidir ki, cari ilin ötən aylarında Türkmənistan Respublikasından İran İslam Respublikası ərazisindən keçməklə muxtar respublikamıza 53 vaqon – 3383 tondan artıq gübrə gətirilib. Bundan əlavə, yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan dəmir yollarına birləşdirilməsi ilə muxtar respublikanın inkişafı daha da sürətlənəcək, blokadanın yaratdığı çətinliklər tam aradan qaldırılacaq.

*Görünən odur ki, keçmişdə olduğu kimi, müasir dövrdə də Naxçıvan regionda tutduğu beynəlxalq dəhliz statusunu bərpa edəcəkdir. Bu isə Şərqlə Qərb arasında transformativ rol oynayan Naxçıvanın getdikcə artan siyasi çəkisindən xəbər verir.*

**Səbuhi HƏSƏNOV**

## Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir

***Naxçıvan Muxtar Respublika Xəstəxanasının elektron zalında keçirilən sertifikasiya imtahanlarının növbəti mərhələsində muxtar respublikanın səhiyyə müəssisələrində çalışan orta tibb işçiləri öz biliklərini sınayıblar.***

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri, sertifikasiya şurasının sədr müavini Süleyman Cəfərov tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikanın səhiyyə sistemində sertifikasiya imtahanları bu il kompüterə verilmiş proqrama uyğun aparılır. Bu məqsədlə xəstəxananın yeni binasındakı elektron zaldan istifadə edilir. Elektron zalda server xidməti ilə birgə 31 kompüter qurulub. Kompüter proqrama uyğun olaraq ümumi sual bankından 2 müxtəlif variantda 60 test və 5 klinik tapşırıq sualını seçir. Bu, imtahanların aşkarlıq və şəffaflıq şəraitində keçirilməsini təmin edir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən suallar tərtib edilərək kompüterə yerləşdirilib. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 60 sual seçilərək imtahanda iştirak edən orta tibb işçilərinə təqdim olunub, eyni zamanda yazılı olmaqla müsahibə mərhələsinin də sualları paylanılıb. Cavablandırma qaydaları izah edilib. Məxfiliyin gözlənilməsi məqsədilə müsahibə sual kartlarında imtahan verənin adı, soyadı yox, kod nömrəsi əksini tapıb. Üç saat davam edən imtahanın gedişi imtahan-nəzarət komissiyası tərəfindən izlənilib. İmtahan suallarının test hissəsi üzrə cavab kartlarının yoxlanması kompüterlə, klinik hissəsi üzrə cavabların qiymətləndirilməsi isə mütəxəssislərin iştirakı ilə aparılıb.

İmtahanlara cəlb olunan 92 tibb işçisindən 83 nəfəri növbəti mərhələdə iştirak edib. İmtahan suallarının test hissəsi üzrə 40 və ya daha çox, klinik tapşırıq hissəsi üzrə isə 16 və ya daha çox bal toplamış 55 orta tibb işçisi sertifikasiyadan keçərək 5 il müddətində müvafiq ixtisas üzrə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ əldə edib. 28 nəfər isə zəruri həddi keçə bilməyib. Sertifikatlaşdırma imtahanlarında uğurlu nəticə əldə edə bilməyən orta tibb işçiləri ixtisaslarına uyğun hazırlıq kurslarına cəlb olunacaqlar. Onlar altı ay müddətində iş yerləri saxlanılmaqla müvafiq peşə hazırlığı keçəcək, sonra yenidən sertifikatlaşdırma imtahanlarında iştirak edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İnkişaf etmiş dövlətlərin təcrübəsi sübut edir ki, iqtisadiyyatın sabit tempini qorumaq üçün yerlərdə sahibkarlığın inkişafı və onun rolunun artırılması, müasir infrastrukturun yaradılması iqtisadi siyasətin prioritet məsələlərindən biri olmalıdır.***

## Naxçıvanda bayram yarmarkası keçirilir

Bu məqsədlə muxtar respublikamızda da sahibkarlıq mühitinin formalaşması, iş adamları üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi özəl sektorun ümumi daxili məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur. Bu artım, öz növbəsində, daxili bazarın yerli istehsal hesabına keyfiyyətli məhsullarla təmin olunmasına rəvac verib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirilib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda dekabr ayının 29-dan 31-dək təşkil olunacaq bayram yarmarkasında da yerli məhsullar satışa çıxarılacaq.

Yarmarkada istehlakçılara kənd təsərrüfatı məhsulları ilə yanaşı, digər ərzaq malları da təklif olunur. Əlavə olaraq, yarmarkaya muxtar respublikada fəaliyyət göstərən, kənd təsərrüfatı məhsullarını idxal edərək topdansatışını həyata keçirən 8 sahibkar dəvət olunub ki, həmin sahibkarlar da məhsulların topdansatış qiyməti ilə pərakəndə satışını həyata keçirəcək.

Bayram yarmarkasına 56 sahibkarlıq subyekti tərəfindən 42 növdə, 235 çeşiddə məhsul çıxarılacaq. İstehlakçılar bu yarmarkada müxtəlif ərzaq və kənd təsərrüfatı mallarını bazardakı qiymətlərlə müqayisədə daha ucuz qiymətə əldə edə biləcəklər.

Yarmarkanın təşkil olunmasında məqsəd şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınmasından ibarətdir.

Yarmarkada həm qiymətlərə, həm də keyfiyyətə daimi nəzarət ediləcək.

**Xəbərlər şöbəsi**




# 2016-cı ili də uğurla başa vurur

*Qədim Naxçıvanın ən yeni tarixində növbəti, 2016-cı il də arxada qaldı. Bu günlərdə bütün Azərbaycan vətəndaşları kimi, Naxçıvan Muxtar Respublikası sakinləri də müstəqil dövlətimizin memarı, ulu öndər Heydər Əliyevin ideyaları ətrafında daha sıx birləşərək qurub-yaratmaq əzmi ilə növbəti ilə qədəm qoyurlar. 2016-cı il, ümumilikdə, dünya iqtisadiyyatında çətin sınaqlar ili olsa da, bu, bütövlükdə, ölkəmizdə və muxtar respublikamızda əldə olunmuş iqtisadi yüksəliş tempinə təsir edə bilmədi, tam əksinə, insanların sosial-mədəni həyatında keyfiyyət sarıdan müsbət irəliləyişlər daha da çoxaldı.*

2016-cı il Naxçıvan Muxtar Respublikası üçün nə ilə əlamətdar oldu? İllər ərzində çəkilən gərgin zəhmət hesabına muxtar respublikada yaradılmış güclü istehsal-iqtisadi potensialdan səmərəli istifadə edilməsi ilə 2016-cı ildə diyarımızın daha da çiçəklənməsi üçün xeyli işlər görüldü, yeni layihələr həyata keçirildi. Naxçıvanda əhalinin rifahının yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, xarici ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Bütün bunlar muxtar respublikada bərqərar edilmiş ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsinə və iqtisadi sahədə sabit artım tempinin qorunub saxlanılmasına imkan yaratdı. Blokada vəziyyətində olan bir region üçün həyati əhəmiyyət daşıyan ərzaq və enerji təhlükəsizliyi məsələlərinin daha etibarlı şəkildə həll olunması üçün atılan yeni addımlar, bütövlükdə, Naxçıvana xas olan idarəetmə imicinin daha da yüksəlməsi baxımından bu ili də yaddaqalan etdi.

Azad sahibkarlıq fəaliyyətinə üstünlük verildiyi Naxçıvanda özəl bölmənin real sektordakı əhəmiyyəti diqqətdə saxlanılır. Muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində sahibkarlığın daha da inkişafını təmin etmək yola salmaqda olduğumuz ildə də prioritet sahələr kimi öz əhəmiyyətini saxlayıb. İqtisadi fəal əhalinin məşğulluq səviyyəsini artırmaq, infrastrukturu yeniləşdirmək, əhalinin sosial məsələlərinin həllinə nail olmaq məqsədilə təkcə 2016-cı ildə həyata keçirilmiş layihələr arasında avtomobil şinlərinin üzlənməsi, mebel, qapı-pəncərə, dəri emalı sahəsinin fəaliyyətinin genişləndirilməsi, çörək (lavaş), unlu-qənnadı məmulatları, eyni zamanda istixanalar, soyuducu anbarlar, heyvandarlıq, quşçuluq, balıqçılıq təsərrüfatları və xidmət sahələri olmaqla, 28 sahənin yaradılması başa çatdırılıb. Müxtəlif ölçü və formada qızıl-gümüş zinət əşyaları, medal və döş nişanları, qaynaq çubuğu, meyvə şirələri, mürəbbə və turşu, xama, qarışıq yem istehsalı, həmçinin quşçuluq, arıçılıq təsərrüfatları olmaqla, 12 sahənin yaradılması istiqamətində isə işlər davam etdirilməkdədir. Sahibkarlığa Kömək Fondu tərəfindən təkcə 2016-cı ildə 21 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 15 milyon 69 min manat dövlət maliyyə dəstəyi göstərilib. Ümumiyyətlə isə 2000-ci ildən ötən müddət ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 1219 layihənin maliyyələşdirilməsinə 134 milyon 204 min manatdan artıq həcmdə kredit verilib. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada 120 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsulları olmaqla, 366 növdə məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsi təmin edilib.

İqtisadiyyatın mühüm inkişaf göstəricilərindən biri olan xarici ticarət əlaqələrinin genişləndirilməsi Naxçıvan Muxtar Respublikasının müasir inkişaf mərhələsində diqqət mərkəzində saxlanılır. Naxçıvandan dünya ölkələrinə ixrac olunan məhsullar, ümumilikdə, ölkəmizin qeyri-neft sektoru üzrə ixracat potensialının artırılmasında mühüm paya malikdir. Bu məhsullar Azərbaycanın milli ixracat brendinin dünyaya tanıdılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Hazırda Naxçıvan Muxtar Respublikasında öz fəaliyyət istiqamətlərinə görə 51 müəssisə ixrac qabiliyyətinə malikdir. Bu müəssisələr tərəfindən 60 növdə məhsulun istehsalı həyata keçirilir. Naxçıvandan ixrac olunan məhsullar arasında mineral sular, təbii duz, emal olunmuş ət və meyvə məhsulları, qazlı aromatlaşdırılmış və spirtli içkilər, meyvə şirələri, sement, gips, gips lövhələr, məsaməli beton məmulatları, metal, mərmər və travertin daş məmulatları, xam dəri, mebel və digər məhsullar vardır. Bu məhsullara dünya bazarında olan böyük tələbat isə onların rəqabətqabiliyyətliliyini artıran yüksək keyfiyyəti və digər analoqlarına nisbətən münasib qiymətinə görədir. Naxçıvandan ixracata göndərilən məhsullar dünya bazarında özünə yer tutduqca daha çox əcnəbi sahibkar da Naxçıvanla əməkdaşlığa can atır. Elə bu gün Naxçıvanda keçiriləcək yüksək səviyyəli bir tədbir – Azərbaycan-İran biznes forumu da bunun təsadüfi olmadığını göstərir. Hazırda Naxçıvandan Türkiyə, İran, Rusiya, Gürcüstan, Ukrayna, Litva və digər ölkələrə göndərilən ixrac məhsulunun həcmi cari ilin yanvar-noyabr aylarında 378 milyon 761 min 700 ABŞ dolları ötüb ki, bu da son bir il ərzində 1,1 faiz artım deməkdir. Genişləndirilən xarici ticarət əlaqələri ödəmə balansında müsbət saldonun yaranmasına səbəb olub. Belə ki, bu dövrdə muxtar respublikada aparılan ixrac və idxal əməliyyatları arasında 344 milyon 337 min 600 ABŞ dolları həcmində müsbət saldo yaranıb.

İqtisadiyyatda əldə olunan uğurlar insanların qurub-yaratmaq əzmini artıran, onları torpağa bağlayan əsas amillərdəndir. 2016-cı ildə də Naxçıvan Muxtar Respublikasında quruculuq işləri əzmlə davam etdirilib. Bu il muxtar respublikada həyata keçirilmiş quruculuq tədbirləri həm paytaxt Naxçıvan şəhərini, həm də ən ucqar dağ və sərhəd kəndlərini əhatə edib.

2016-cı ildə aparılan quruculuq tədbirləri çərçivəsində Şərur rayonunda Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üçün yeni tədris korpusu, Arbatan kəndində yeni sosial obyektlər istifadəyə verilib. Eyni zamanda Şərur şəhər 2 nömrəli tam orta məktəbin, Çəmənli kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, eləcə də Arpaçay kəndindəki kənd və xidmət mərkəzlərinin tikintisi davam etdirilib.

Cari ildə Babək rayonunda 31 min nəfərdən çox əhalinin yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə verilib, Gərməçataq kənd avtomobil yolu yenidən qurulub. Xəlilli kəndində kənd və xidmət mərkəzləri, məktəb binası istifadəyə verilib. Məzrədə kənd və xidmət mərkəzləri, tam orta məktəb binası quruculuq işlərinin davamı kimi kənd sakinlərini sevindirib. Həmçinin Hacıvarda kənd və xidmət mərkəzləri, Badaşqan kəndində isə xidmət mərkəzi tikilib. Yarımca kəndində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib, kənd tam orta məktəbi isə əsaslı təmir olunub.

Ordubadda da həyata keçirilən quruculuq tədbirləri rayonun ən ucqar dağ və sərhəd kəndlərinin belə,










simasını dəyişib. Cari ildə Ordubad şəhərində Ordubad dəmiryol sərnişin vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında tikinti işləri davam etdirilib. Ordubad Texniki Peşə və Sürücülük Məktəb kompleksi istifadəyə verilib. Rayonun Baş Dizə kəndində kənd və xidmət mərkəzləri, 156 yerlik məktəb binası inşa edilib.

Kəngərli rayonunun Yurdçu kəndində orta məktəb, kənd və xidmət mərkəzləri üçün binalar, o cümlədən Yurdçu kənd yolu istifadəyə verilib. Rayondakı quruculuq işləri çərçivəsində Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası yenidən qurulub.

Müasir Şahbuzun bütün yaşayış məntəqələri artıq abadlığa qovuşub, rayonun ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinin belə, siması tanınmaz dərəcədə dəyişilib. Bu il rayonda Daylaqlı kənd və xidmət mərkəzləri tikilib, kənd tam orta məktəbinin binası istifadəyə verilib, kənddaxili yollar yenidən qurulub. Kiçikoba-Daylaqlı kənd avtomobil yolu yenidən qurulub, Kiçikobada kənd və xidmət mərkəzləri tikilib sakinlərin istifadəsinə verilib.

Culfada da həyata keçirilən kompleks quruculuq tədbirləri öz bəhrəsini verib, əhalinin maddi rifah halı daha da yaxşılaşıb. Cari ildə bu rayonun Saltaq və Gülüstan kəndləri kompleks şəkildə abadlaşdırılıb, Culfa şəhərində bir neçə yaşayış binası əsaslı təmir olunub, Naxçıvan-Ordubad magistralı-Culfa şəhər və Gülüstan kənd avtomobil yolu yenidən qurulub, Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon Şöbəsinin inzibati binası istifadəyə verilib, qədim Xanəgah kəndi müasir yaşayış məntəqəsinə çevrilib. Bu il muxtar respublikamızda aparılmış möhtəşəm quruculuq işləri arasında təkcə culfalılar üçün deyil, eləcə də bütün ölkəmizin tarixində yaddaqalan bir hadisə "Əlincəqala" tarixi abidəsinin bərpası və muzeyinin istifadəyə verilməsi olub.



*Qədim Naxçıvan inkişaf edib gözəlləşir. Sadalanan və adları çəkilməyən daha çox saydakı işlər tarixiliklə müasirliyin vəhdət halında bir məqsəd ətrafında birləşərək qələbə çaldığı, heç bir çətinlikdən qorxmadan, heç bir çatışmazlıqdan bəhanə gətirmədən öz inkişaf xəttini uğurla davam etdirən Naxçıvanın son bir ildə keçdiyi yolun qısa xülasəsidir. Qarşıda isə bizi daha böyük uğurlar gözləyir.*

**Əli CABBAROV**

# 2016-cı ilin quruculuq ərməğanları

## *Yeni yaşayış binaları əhalinin rahatlığını təmin edir*









Hər bir ailə geniş, rahat və işıqlı mənzilə sahib olmağı istəyər. Arzulayar ki, qışda soyuqdan, yayda istidən qoruna biləcəyi, dörd divardan ibarət bir evdə yaşasın, orada övladlarını rahat, məsud böyütsün. Bir sözlə, ev ailənin yuvası, bütün ətraf təsirlərdən qorunacağı məkandır.

Naxçıvanda yaşayış binalarının 20-25 il bundan əvvəlki vəziyyətini yada salanda ilk olaraq gözlər önünə xarab liftlər, uçub tökülmüş və yaxud hər an qəza törədə biləcək eyvanlar, suvağı qopub tökülmüş fasad, ətrafda natəmizlik, hər tərəfdən boy göstərən su çənləri, kanalizasiya suları ilə dolu zirzəmilər, qapı-pəncərəsi sınıq-salxaq blok girişləri, yağış yağanda sıradan çıxmış şiferdən birinci mərtəbəyə qədər tökülən suyun yaratdığı gölməçələr, qonşu binalara qədər uzanan zivələrdən asılan geyimlər, hər kəsin ürəyi istədiyi kimi quraşdırdığı çanaq antenlər gəlir. Binalara baxanda çanaq antenlərin çoxluğunu görüb nabələd adam elə düşünərdi ki, bu bina hansısa teleötürücü stansiyanın yardımçı tikilisidir. Yaxşı yadımdadır, hələ məktəb illərində yaşadığı bina haqqında bir müəllimim zarafatla dedi ki, bizim binalar Afrikanın geridə qalmış ölkələrindən biri olan Anqolanın binalarından daha bərbaddır. O zamanlar biz uşaq idik və bu bənzətməyə gülmüşdük. Ancaq yaşa doldukca gördük ki, müəllimimiz bu bənzətməni nə qədər yerində işlədib. Elə evlərin şəraiti də o qədər ürəkaçan deyildi. Tez-tez su xətləri sıradan çıxır, qonşular arasında mübahisə düşür, heç bir qaydaya əsaslanılmadan çəkilən elektrik xətlərindən qəzalar törənirdi. Elə o zamanlar bir çoxları binadakı mənzillərini satıb şəxsi həyətə köçmək istəyirdi. Biri "binada mənzilim var" deyəndə ilk yada düşən səs-küy, səliqə-sahmansızlıq, qayda-qanunsuzluq olurdu. Başqa bir ifadə ilə desək, ingilislərin "mənim evim mənim qalamdır" deyimini heç cür o dövrün yaşayış binalarındakı mənzillərə aid etmək olmazdı. Çünki bu "qalanın" içində hər kəs kommunal xidmətlər sarıdan köməksiz, təbiətin şıltaqlıqlarından müdafiəsiz idi.

Ancaq yaxşı ki, illər öncə əhalinin mənzil-məişət şəraiti sahəsindəki bütün qarışıqlıqlara son qoyulmasına başlanıldı. Mərhələ-mərhələ Naxçıvan şəhərinin ictimai yaşayış binaları yeni görkəm aldı, bu binalar yenidən quruldu, elektrik, mavi yanacaq, su xətləri yeniləndi, istilik probleminə birdəfəlik son qoyuldu, yeniləşən şəhərimizə gözəllik verən, müasir memarlıq inciləri sayılan yeni yaşayış binaları tikildi, gənclərin mənzillə təminatı sahəsində mühüm işlər görüldü. Bu gün Naxçıvan şəhəri nəinki ölkəmizdə, hətta bütün regionda nümunə gücündədir. Bu fikri təkcə yerli sakinlər yox, muxtar respublikamızın qonaqları da təsdiqləyirlər. Müasirləşən şəhərimizdə bu gün insanların istək və arzularına uyğun layihələr reallaşdırılır. İnsanlar yeni mənzilə sahib olmaqla bərabər, gələcək üçün rahat yaşayış əldə edirlər. Maraqlı burasıdır ki, yenidən qurulan və yeni inşa olunan yaşayış binaları günün, gələcəyin tələbi ilə uyğunlaşdırılır, müasirliyi, yeniliyi, dəyişikliyi hər bir sakin gündəlik həyat tərzində hiss edir.

Şəhərlər sosial-mədəni və mənzil-məişət şəraiti, ətraf mühiti, təhlükəsizliyi, təhsil imkanları, tibb, nəqliyyat və rabitə infrastrukturu, əhalinin gəlirləri və digər göstəriciləri ilə tanınır və qiymətləndirilir. Bu gün doğma şəhərimizə baxanda görürük ki, burada insanların rahat şəkildə yaşaması və işləməsi, asudə vaxtını səmərəli və mənalı keçirməsi üçün hər cür şərait var. Naxçıvan şəhərinin ərazisində olan, mənzillərin keyfiyyətinin və rahatlığının yüksək səviyyədə təmin edildiyi yaşayış komplekslərinin əsas üstünlüklərindən biri də onların hamı üçün əlverişli olan aşağı qiymətləridir. Komplekslərin inşasında mütəxəssislər ən tələbkar alıcı auditoriyasının tələbləri – komfortlu yaşayış və sosial rifahı təmin edən ideyalarını ortaya qoyublar. Eyni zamanda yüksəkkeyfiyyətli inşaat materiallarından istifadə etməklə, innovativ texnologiyaları tətbiq etməklə yeni layihələrin gerçəkləşməsinə nail olunub, maksimum sosial-ictimai bir ab-hava yaradan komplekslər inşa edilib.

Bundan başqa, müasir şəhərimizin yaşayış komplekslərində asudə vaxtı səmərəli və mənalı keçirmək, rahat və çeşidli alış-veriş etmək, eyni zamanda sağlam həyat tərzi keçirmək üçün bütün şərtlərə cavab verən hər şərait mövcuddur. Məhz Naxçıvan şəhərində böyük şəhər həyatı ilə şəhərkənarı yaşayış arasında harmoniyanın ortaq nöqtələrini tapmaq mümkündür. Çünki hər bir kompleksin ərazisində genişmiqyaslı yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemləri, uşaq əyləncə qurğuları qurulub.

İndi Naxçıvan şəhərindəki yaşayış komplekslərinə uşaq bağçası, orta məktəb və digər infrastrukturlar daxildir. Bu da hər bir valideynə vaxta qənaətdə, rahatlıqda geniş imkanlar yaradır. Sevindirici haldır ki, şəhərimizdə hər bir yaşayış binasının yaxınlığında ticarət, iaşə və digər xidmət obyektləri də fəaliyyət göstərir.

Beləcə, müasir yaşayış binaları sayəsində hər bir şəhər sakini özünü əmin-amanlıqda hiss edir, rahat və qayğısız yaşayır.

**✍ Səbuhi HÜSEYNOV**

## Bəstəkar Yaşar Xəlilovun 60 illiyi qeyd olunub

***Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, ali məktəbin Bəstəkarlıq kafedrasının baş müəllimi, bəstəkar Yaşar Xəlilovun anadan olmasının 60 illiyi qeyd olunub.***

İncəsənət fakültəsinin dekanı, dosent Günay Məmmədova "Bəstəkar Yaşar Xəlilovun yaradıcılıq portreti" adlı məruzə ilə çıxış edib. Qeyd olunub ki, 1956-cı ildə Ordubadda dünyaya göz açan Yaşar Xəlilov uşaqlıq illərindən ədəbiyyata, musiqiyə böyük həvəs göstərib. O, 1966-cı ildə Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin tar sinfinə daxil olub. Burada Kamil Qəniyev, Rəsul Məmmədov kimi tanınmış müəllimlərdən dərs alıb. 1972-ci ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin tar sinfinə daxil olub. 1976-cı ildə təhsilini başa vuraraq Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsinə qəbul edilib, dahi bəstəkar Qara Qarayevin sinfində oxuyub. Elə Yaşar Xəlilovun bəstəkar kimi formalaşmasında da müəllimlərindən Qara Qarayev, Fərəc Qarayevin, Boris Yermolayevin böyük xidmətləri olub. Vurğulanıb ki, hazırda Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri olan Yaşar Xəlilov həm də Naxçıvan Dövlət Universitetində və Naxçıvan Musiqi Kollecində müəllim kimi fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə o, 2008-ci ildə muxtar respublikanın "Əməkdar incəsənət xadimi" fəxri adına, dövlət başçısı İlham Əliyevin 2013-cü il 1 may tarixli Sərəncamı ilə isə Prezident mükafatına layiq görülüb.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxışında Azərbaycan musiqi xəzinəsinə öz töhfələrini verən bəstəkarın yaradıcılığından söz açıb, ona səmərəli elmi-pedaqoji fəaliyyətinə görə universitetin Fəxri fərmanını təqdim edib.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev bəstəkarı təbrik edib, yaradıcılığında daha böyük nailiyyətlər arzulayıb.

Tədbirin bədii hissəsində əvvəlcə Qara Qarayev adına Azərbaycan Dövlət Filarmoniyasının Kamera Orkestrinin ifasında müəllifin "Əshabi-Kəhf" baletindən fraqmentlərin, həmçinin filarmoniyanın Xalq Çalğı Alətləri Orkestrinin ifasında "Azərbaycan" və "Yallı" əsərlərinin videoyazısı nümayiş olunub.

Sonra canlı ifalar dinlənilib. Konsertdə Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev "Sözsüz mahnı", Fortepiano ixtisası üzrə I kurs tələbəsi Səxavət Rəhimov "Rəqs", müəllim Cahangir Qurbanov "Melodiya", Xalq çalğı alətləri ixtisası üzrə III kurs tələbəsi Ələsgər Cəlilzadə "Qızlar bulağı", Solo oxuma ixtisası üzrə II kurs tələbəsi İlkin Abdullayev "Naxçıvanın gecələri" adlı əsərləri ifa ediblər. Konsert yubilyarın ifasında "İblis" operasından "Ariflə Xavərin dueti" ilə yekunlaşıb.

Sonda bəstəkar ona göstərilən diqqətə görə minnətdarlığını bildirib.

**Nərmin CABBAROVA**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 976